# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDLİYYƏSİ

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN ƏDLİYYƏSİ (XX ƏSRİN 70–80-Cİ İLLƏRİ)

1960-cı illərdə Azərbaycan ümumi inkişaf səviyyəsinə, o cümlədən sənayedə, kənd təsərrüfatında, elm və texnika sahələrində digər ittifaq respublikaları ilə müqayisədə xeyli geri qalırdı. Ölkədə istehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsi, milli gəlirin həcmi və əmək məhsuldarlığının artım sürəti ittifaq səviyyəsindən aşağı idi. Və bu gerilik getdikcə artırdı.

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu il iyulun 14-də xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) birinci katibi seçilməsi ölkəmizin inkişafının, milli özünüdərkə, milli özünəqayıdışına dönüş mərhələsinin başlanğıcı oldu. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-ci illər ərzində bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, sənayedə, kənd təsərrüfatında, mədəniyyət, təhsil sahəsində yüksək nailiyyətlər qazanıldı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, milli, o cümlədən, hərbçi kadrların yetişdirilməsi üçün yeni ixtisaslaşmış təhsil ocaqları yaradıldı.

Sosial-iqtisadi, ictimai-mədəni və digər sahələrdə olduğu kimi, ədliyyə-hüquq sahəsində də əsaslı dönüş yarandı. Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" – deyərək qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, cinayətkarlığa, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirdi. Bununla bağlı Heydər Əliyevin həmin dövrdə SSRİ-nin ən oxunaqlı qəzetlərindən olan "Literaturnaya qazeta"ya verdiyi "Qoy ədalət zəfər çalsın!" sərlövhəli müsahibəsi, açıq və dolğun fikirləri dərin rəğbətlə qarşılanmışdı.



*1969-cu il iyulun 14-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir*

Qanunçuluğun təmin edilməsinin, hüquq-mühafizə fəaliyyətinin yüksək tələblər səviyyəsində qurulmasının vacibliyini daim önə çəkən Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının 1969-cu il avqustun 5-də keçirilən plenumunda respublikadakı durum və qarşıda dayanan vəzifələrlə bağlı proqram xarakterli çıxışında qeyd edirdi ki, "cinayətkarlığın qarşısını almaq üçün inzibati orqanlar xalq ilə təmasda işləməlidirlər. Hüquq-mühafizə sahəsində çalışanların işinin uğuru onların əhali ilə sıx əlaqə yarada bilməsindən son dərəcə asılıdır. Qanunçuluğun möhkəmləndirilməsi ilə bağlı görülən işlər heç də qənaətbəxş deyil. Neqativ hallar bəzən illərlə davam edir".

Həmin dövrdə ədliyyə fəaliyyəti pərakəndə həyata keçirilirdi və bu da bir sıra problemlər doğururdu. Bununla əlaqədar Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin "Məhkəmə və prokurorluq orqanlarının işinin yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 30 iyul 1970-ci il tarixli Qərarı ilə ədliyyə nazirlikləri bərpa olundu.

Azərbaycanda Ədliyyə Nazirliyinin formalaşdırılması və inkişafı Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1970-ci il 27 oktyabr tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi yenidən təsis olundu.



10

Литературная газета № 47

18 ноября 1981 г.

Кандидат в члены Политбюро ЦК КПСС, первый секретарь ЦК Компартии Азербайджана Г. А. Алиев отвечает на вопросы специального корреспондента «ЛГ»

«ПУСТЬ СПРАВЕДЛИВОСТЬ ВЕРХ БЕРЕТ...»

АКТУАЛЬНОЕ ИНТЕРВЬЮ

*Heydər Əliyevin "Literaturnaya qazeta"ya müsahibəsi*



Nazirlər Sovetinin 26 iyul 1972-ci il tarixli Qərarı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilərək onun səlahiyyətləri dəqiq müəyyən olundu. Həmin sənəddə qeyd edilirdi ki, "Ədliyyə Nazirliyi Naxçıvan MSSR Ali Məhkəməsinə, Dağlıq Qarabağ vilayət məhkəməsinə, Bakı və respublikanın digər rayon (şəhər) xalq məhkəmələrinə təşkilati rəhbərlik edir, qanunların sistemləşdirilməsi sahəsində iş aparır, qanunların məcəlləşdirilməsinə dair təkliflər hazırlayır, xalq təsərrüfatında hüquqi işə, hüquqi biliklərin təbliği və qanunların əhali arasında izahı sahəsində dövlət orqanlarının və ictimai təşkilatların işinə metodiki köməklik göstərir və bu işi əlaqələndirir, respublikanın notarius, məhkəmə ekspert idarələrinə, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarına və vəkillik fəaliyyətinə ümumi rəhbərlik edir".

Həmçinin hakimlərin və xalq iclasçılarının seçkilərinin keçirilməsi ilə bağlı təkliflərin hazırlanması, məhkəmə orqanlarının fəaliyyətinin yoxlanılması, məhkəmə statistikasının aparılması da Ədliyyə Nazirliyinə həvalə olunmuşdu.

Azərbaycan SSR Ali Sovetinin 17 noyabr 1970-ci il tarixli Fərmanına əsasən Ədliyyə Nazirliyi xalq məhkəmələrinin seçicilər qarşısında hesabatlarının müntəzəm keçirilməsinə, bu hesabatlarda cinayətkarlığın vəziyyətinin təhlil olunmasına, ictimai nəzarətin təmin edilməsinə xüsusi diqqət yetirməli idi.

19 iyul 1973-cü il tarixli "Dövlət notariatı haqqında" SSRİ Qanununa uyğun olaraq 27 dekabr 1973-cü ildə "Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanunu qəbul edildi.

Dövlət notariat kontorlarının təşkili və fəaliyyətini tənzimləyən bu Qanunda ilk dəfə olaraq, dövlət notariatı haqqında qanunvericiliyin xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilməsi nəzərdə tutulmuşdu.

Qanunda dövlət notariatının vəzifələri, ona rəhbərlik, dövlət notariat kontorlarının və digər orqanların apardığı əməliyyatlar və bu əməliyyatların aparılması qaydaları müəyyən edilmişdi.

Qanuna əsasən dövlət notariatına rəhbərliyi SSRİ və Azərbaycan SSR Nazirlər Sovetləri, İttifaq və respublika Ədliyyə nazirlikləri, habelə digər qurumlar həyata keçirirdilər. Dövlət notariusları vəzifələrinə ali hüquq təhsili olan SSRİ vətəndaşları təyin edilirdi ki, onların təyinatı və vəzifədən azad olunması Azərbaycan SSR Ədliyyə Nazirliyinə tapşırılmışdı.

Bu Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan SSR Ədliyyə Nazirliyi əhaliyə hüquqi xidmətlərin göstərilməsi işinin yaxşılaşdırılması, vətəndaşların mülki hüquq münasibətlərindən irəli gələn məsələlərin həlli məqsədilə notariat əməliyyatlarının aparılması işinin səmərəli təşkili ilə bağlı mühüm qərarlar qəbul etdi.



Принято 14 декабря 1971 г. прот. № 27 § 1

ПОСТАНОВЛЕНИЕ

БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

О работе партийных организаций города Баку по выполнению постановления ЦК КПСС и Совета Министров СССР от 23 июля 1966г. "О мерах по усилению борьбы с преступностью".

ЦК КП Азербайджана отмечает, что партийные организации г.Баку во исполнение постановления ЦК КПСС и Совета Министров СССР от 23 июля 1966 года "О мерах по усилению борьбы с преступностью" провели определенную работу по искоренению преступных проявлений, улучшению руководства деятельностью административных органов, повышению роли общественности в деле борьбы с правонарушениями, усилению правовой пропаганды среди населения. Осуществляются меры по укреплению кадров административных органов, повышению их ответственности за обеспечение строгой охраны народного добра от преступных посягательств и неукоснительное соблюдение общественного правопорядка.

Баку является столичным городом, крупнейшим промышленным, научным и культурным центром республики. Это обстоятельство налагает на партийные организации города особую ответственность за наведение образцового общественного порядка как в целом в городе, так и в каждом из его районов.

Однако, как показала проверка, поставленные ЦК КПСС и Советом Министров СССР задачи по дальнейшему укреплению социалистической законности, искоренению преступности и причин, ее порождающих, горкомом и райкомами партии города Баку решаются медленно. В осуществляемых ими мероприятиях по борьбе с преступностью нет должной целенаправленности и последовательности. Деятельность административных органов не находится под постоянным и взыскательным контролем партийных комитетов.

*Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsinə dair tədbirlər barədə Azərbaycan KP MK Bürosunun Qərarı, 1971-ci il*



5.-

горде и во всех населенных пунктах, слабо развивают активность трудящихся в деле искоренения преступности, в особенности с хищениями народного добра, спекуляцией, хулиганскими проявлениями.

ЦК КП Азербайджана постановляет:

I. Потребовать от Бакинского горкома и райкомов партии принять решительные меры по устранению отмеченных в настоящем постановлении недостатков, разработать и осуществить вытекающие из постановления ЦК КПСС и Совета Министров СССР дополнительные мероприятия, добиться на деле наведения образцового общественного порядка в столице республики - городе Баку, в каждом его районе и поселке, обеспечить надлежащую охрану интересов государства и граждан от посягательств воров, грабителей, хулиганов, спекулянтов и других преступных элементов.

Всю работу по искоренению преступности необходимо проводить при активном участии широких слоев общественности, поднять роль и ответственность в этом деле первичных партийных, комсомольских и профсоюзных организаций; повысить требовательность к руководителям предприятий, строек, учреждений, учебных заведений за состояние трудовой дисциплины и общественного правопорядка в коллективах.

2. Бакинскому горкому КП Азербайджана и Бакгорисполкому, райкомам партии и райисполкомам совместно с руководителями административных органов тщательно разобраться в положении дел с преступностью в городе и его районах, принять безотлагательные и действенные меры к изжитию преступных проявлений, обратив особое внимание на искоренение особо опасных преступлений и порождающих их причин.

Впредь систематически и глубоко производить анализ положения дел с преступностью и делать из этого необходимые практические выводы.

6.-

...настоящего постановления в первичных партийных организациях, мобилизовать усилия коммунистов на решительное искоренение преступных проявле-...

7.-

8.-

...ния доложить ЦК КП Азербайджана к I июля 1972 года.



# ПОСТАНОВЛЕНИЕ

ЦК КП Азербайджана и Совета Министров Азербайджанской ССР

О мерах по улучшению работы судебных и прокурорских органов

(Постановление ЦК КПСС и Совета Министров СССР от 30 июля 1970 года № 634).

Центральный Комитет КП Азербайджана и Совет Министров Азербайджанской ССР постановляют:

...В целях повышения уровня государственного руководства судами и другими учреждениями юстиции и дальнейшего совершенствования их деятельности, осуществления методического руководства правовой работой в народном хозяйстве, а также улучшения работы по систематизации и подготовке предложений о кодификации законодательства признать целесообразным образовать союзно-республиканское Министерство юстиции Азербайджанской ССР.

Одобрить проект Указа Президиума Верховного Совета АзербССР "Об образовании союзно-республиканского Министерства юстиции Азербайджанской ССР". В связи с этим признать целесообразным упразднить Юридическую комиссию Совета Министров Азербайджанской ССР.

Одобрить проект Указа Президиума Верховного Совета Азербайджанской ССР "Об упразднении Юридической комиссии Совета Министров Азербайджанской ССР".

*Məhkəmə və prokurorluq orqanlarının işinin yaxşılaşdırılması barədə Qərar, 1970-ci il*



**153 Азәрбајҹан ССР Иттифаг-Республика Әдлијјә Назирлији јарадылмасы һаггында**

**АЗӘРБАЈҸАН ССР АЛИ СОВЕТИ РӘЈАСӘТ ҺЕЈ'ӘТИНИН ФӘРМАНЫ**

«ССРИ Иттифаг-Республика Әдлијјә Назирлији јарадылмасы һаггында» ССРИ Али Совети Рәјасәт һеј'әтинин 1970-чи ил 31 август тарихли Фәрманына ујғун олараг, Азәрбајҹан ССР Али Советинин Рәјасәт һеј'әти гәрара алыр:

Азәрбајҹан ССР Иттифаг-Республика Әдлијјә Назирлији јарадылсын.

Азәрбајҹан ССР Али Совети Рәјасәт һеј'әтинин сәдри Г. ХӘЛИЛОВ.
Азәрбајҹан ССР Али Совети Рәјасәт һеј'әтинин катиби З. ШУКУРОВА.
Бакы шәһәри, 27 октјабр 1970-чи ил.
№ 2174—VII.

*Azərbaycan SSR İttifaq-Respublika Ədliyyə Nazirliyinin yaradılması haqqında Fərman, 1970-ci il*

Qanunvericiliyə əsasən nazirliyin tabeliyində olan vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı şöbələri doğumun və nikahın qeydiyyatını, nikahın pozulmasını, övladlığa götürməni, atalığın müəyyən edilməsini, adın, soyadın və ata adının dəyişdirilməsini, ölümün qeydə alınmasını həyata keçirir, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını dəyişdirir, onlara əlavə və düzəlişlər edirdi. Eyni zamanda qəsəbə və kənd xalq deputatları Sovetlərinin icraiyyə komitələri doğumun qeydiyyatını, nikahın bağlanmasını və pozulmasını, atalığın müəyyən edilməsini və ölümün qeydə alınmasını həyata keçirirdi.

Respublikada hüquq mədəniyyətinin və təbliğatının yüksəldilməsi məqsədilə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR KP MK və Nazirlər Soveti tərəfindən "Azərbaycan SSR Qanunları Külliyyatının hazırlanması və nəşr olunması haqqında" 1976-cı il 5 oktyabr tarixli Qərar qəbul olundu və bu işin keyfiyyətlə həyata keçirilməsi, habelə külliyyatda dərc olunan hüquqi aktların tamlığının təmin olunması Ədliyyə Nazirliyinə tapşırıldı.

Ümummilli lider Heydər Əliyevin bu sahəyə diqqət və qayğısı müstəqillik illərində də davam etmiş, "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu"nun nəşri haqqında Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 5 fevral tarixli Sərəncamı ilə belə bir Toplu təsis edilmişdir. Bu gün də nəşri davam etdirilən və nəzarət nüsxələri Ədliyyə Nazirliyi tərəfindən aparılan həmin toplular nazirliyin kitabxanasında saxlanılır və ədliyyə işçiləri, eləcə də digər hüquqşünaslar onlardan bəhrələnirlər.

Eyni zamanda Ədliyyə Nazirliyi əhali arasında hüquqi biliklərin təbliği, hüquq mədəniyyətinin yüksəldilməsi məqsədilə 1973-cü ildən başlayaraq gənclərin hüquqi biliklərinin artırılmasını təmin etmək üçün təbliğat xarakterli "hüquqi biliklər" aylığı keçirməyə başladı. Tanınmış hüquqşünaslar,

Принято 19 декабря 1973 г. прот. № 84, § 3

**ПОСТАНОВЛЕНИЕ**

**БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА**

О проекте Закона Азербайджанской ССР о государственном нотариате.

В принципе согласиться с представленным Президиумом Верховного Совета республики проектом Закона Азербайджанской ССР о государственном нотариате.

Президиуму Верховного Совета Азербайджанской ССР внести проект указанного Закона на рассмотрение сессии Верховного Совета Азербайджанской ССР.

*"Dövlət notariatı haqqında" Azərbaycan SSR Qanun layihəsi barədə Azərbaycan KP MK Bürosunun Qərarı, 1973-cü il*

## АЗӘРБАЈЧАН ССР МӘҺКӘМӘЛӘРИ ҺАКИМЛӘРИНИН ИНТИЗАМ МӘСʼУЛИЈЈӘТИ ҺАГГЫНДА ӘСАСНАМӘНИН ТӘСДИГ ЕДИЛМӘСИ БАРӘСИНДӘ[1]

АЗӘРБАЈЧАН ССР
АЛИ СОВЕТИ РӘЈАСӘТ ҺЕЈʼӘТИНИН
1976-чы ил 2 ијул тарихли

**ФӘРМАНЫ**

(Азәрбајчан ССР Али Советинин Мәʼлуматы,
1976-чы ил, № 3, маддә 78)

«Азәрбајчан ССР мәһкәмә гурулушу һаггында» Ганунун 86-чы маддәсинә ујғун олараг[2] Азәрбајчан ССР Али Советинин Рәјасәт Һејʼәти **гәрара алыр:**

1. Азәрбајчан ССР мәһкәмәләри һакимләринин интизам мәсʼулијјәти һаггында Әсаснамә тәсдиг едилсин.

## АЗӘРБАЈЧАН ССР МӘҺКӘМӘЛӘРИ ҺАКИМЛӘРИНИН ИНТИЗАМ МӘСʼУЛИЈЈӘТИ ҺАГГЫНДА

## ӘСАСНАМӘ

Маддә 1.

Совет мәһкәмәсинә әдаләт мүһакимәсини һәјата кечирмәк, социалист ганунчулуғуну мөһкәмләндирмәк саһәсиндә мәсʼул вәзифәләр тапшырылмышдыр. Мәһкәмә өзүнүн бүтүн фәалијјәти илә совет вәтәндашларыны Вәтәнә вә коммунизм ишинә сәдагәт руһунда, ССРИ Конститу-

[1] 2-чи маддә тәркибиндә Азәрбајчан ССР Ганунлар Топлусуна дахил едилмәли нормалар олмадығындан верилмир.
[2] Бах: сәһ. 7.



*Azərbaycan SSR Məhkəmələri hakimlərinin intizam məsuliyyəti haqqında Əsasnamə, 1976-cı il*

Принято 9 июня 1978 г. прот. № 72. § 23

ПОСТАНОВЛЕНИЕ

БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

Об увеличении состава коллегии Министерства юстиции Азербайджанской ССР

Принять предложение Министерства юстиции Азербайджанской ССР об увеличении состава коллегии министерства до девяти человек.

*Azərbaycan SSR Ədliyyə Nazirliyinin Kollegiyasının tərkibinin genişləndirilməsi barədə Azərbaycan KP MK Bürosunun Qərarı, 1978-ci il*

*Əlcəzair Demokratik Respublikasının Ədliyyə naziri Bulayan Benxammudun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə görüşü*





Ədliyyə Nazirliyinin əməkdaşları, xalq hakimləri, universitetin professor-müəllim və tələbə kollektivi də bu işə cəlb olundu.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Universitetində hüquqşünas kadrların hazırlanmasına diqqət və qayğı artırıldı. Bu ixtisasa yiyələnənlər əsasən o dövrdə "seçilmiş" şəxslər idisə, 1970-ci ildən başlayaraq hüquq fakültəsi sosial vəziyyətindən asılı olmayaraq bütün istedadlı gənclərin üzünə açıldı.

Ədliyyə Nazirliyinin yaradılması ilə Azərbaycan SSR Ali Məhkəməsinin səlahiyyətlərində də əsaslı dəyişikliklər həyata keçirildi. Ali Məhkəməyə



*Hüquqşünas-tarixçi və filosoflar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin qəbulunda*



məhkəmə təcrübəsini öyrənməklə aşağı məhkəmələrə köməklik göstərilməsi, məhkəmə statistikasının aparılması, qanunvericiliyin tətbiqinə dair məhkəmələrə izahların verilməsi həvalə olundu.

Respublika Ali Soveti Rəyasət Heyətinin 1976-cı il 2 iyul tarixli Fərmanı ilə Azərbaycan SSR məhkəmələri hakimlərinin intizam məsuliyyəti haqqında Əsasnamənin qəbul olunması məhkəmə fəaliyyətinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdi.

Qanunvericiliyə əsasən 25 yaşına çatmış hər bir vətəndaş xalq hakimi və ya iclasçısı seçilə bilərdi. Hakimlər vətəndaşlar tərəfindən gizli səsvermə

Принято 8 июня 1981 г. прот. № 14 § 6

# ПОСТАНОВЛЕНИЕ

## БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

О проекте Закона о судоустройстве Азербайджанской ССР

1. Одобрить проект Закона Азербайджанской Советской Социалистической республики "О судоустройстве Азербайджанской ССР" (прилагается).

2. Принять предложение Президиума Верховного Совета Азербайджанской ССР о дополнении повестки дня очередной сессии Верховного Совета Азербайджанской ССР, созываемой 16 июня 1981 г., следующим вопросом:

О проекте Закона о судоустройстве Азербайджанской ССР.

Вносится Президиумом Верховного Совета Азербайджанской ССР.

Докладчик – председатель комиссии законодательных предположений Верховного Совета республики тов.Гусейнов С.М.

*Azərbaycan SSR Məhkəmə quruluşu haqqında*
*Qanun layihəsi barədə Azərbaycan KP MK-nın Qərarı, 1981-ci il*

АЗӘРБАЈЧАН ССР
МӘҺКӘМӘ ГУРУЛУШУ ҺАГГЫНДА
АЗӘРБАЈЧАН ССР-ин
1981-чи ил 16 ијун тарихли

ГАНУНУ

(Азәрбајчан ССР Али Советинин Мә'луматы.
1981-чи ил, № 12, маддә 159)

*I бөлмә*

**ҮМУМИ ГАЈДАЛАР**

Маддә 1. **Әдаләт мүһакимәсинин јалныз мәһкәмә тәрәфиндән һәјата кечирилмәси**

ССРИ Конститусијасына вә Азәрбајчан ССР Конститусијасына ујғун олараг Азәрбајчан ССР-дә әдаләт мүһакимәси јалныз мәһкәмә тәрәфиндән һәјата кечирилир.

Азәрбајчан ССР-дә ССР Иттифагы мәһкәмәләри вә Азәрбајчан ССР мәһкәмәләри фәалијјәт көстәрирләр.

Азәрбајчан ССР Али Мәһкәмәси, Нахчыван МССР Али Мәһкәмәси, Бакы шәһәр мәһкәмәси, Дағлыг Гарабағ Мухтар Вилајәти вилајәт мәһкәмәси, рајон (шәһәр) халг мәһкәмәләри Азәрбајчан ССР мәһкәмәләридир.

Маддә 2. **Мәһкәмә гурулушу һаггында ССР Иттифагы вә Азәрбајчан ССР ганунверичилији**

Азәрбајчан ССР мәһкәмә гурулушу ССРИ Конститусијасы, Азәрбајчан ССР Конститусијасы, Нахчыван МССР Конститусијасы, ССРИ-дә мәһкәмә гурулушу һаггында ССР Иттифагы вә мүттәфиг республикаларын ганунверичилијинин Әсаслары илә вә ССР Иттифагынын бунлара ујғун олараг гәбул едилән дикәр ганунверичилик актлары илә, бу Ганунла вә Азәрбајчан ССР-ин дикәр ганунверичилик актлары илә мүәјјән едилир.

Маддә 3. **Мәһкәмәнин вәзифәләри**

Мәһкәмәнин әдаләт мүһакимәсини һәјата кечирмәк фәалијјәти социалист ганунчулуғуну вә һүгуг гајдаларыны һәр васитә илә мөһкәмләтмәјә, чинајәтләрин вә дикәр һүгуг позунтуларынын гаршысыны алмаға јөнәлдилмәклә онун вәзифәси:

ССРИ Конститусијасында вә Азәрбајчан ССР Конститусијасында

Азәрбајчан ССР ганунлар топлусу, 7-чи чилд.

*Azərbaycan SSR Məhkəmə quruluşu haqqında Qanun*

yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında beş il müddətinə, xalq iclasçıları isə açıq səsvermə yolu ilə iki il yarım müddətinə seçilirdilər.

Həmin vəzifələrə namizədlər Sovet İttifaqı Kommunist Partiyası, həmkarlar ittifaqları, komsomol təşkilatları, əmək kollektivləri və s. tərəfindən irəli sürülürdü. Seçilmiş hakimlərin siyahısı rayon və şəhər xalq deputatları Sovetinin icraiyyə komitəsi tərəfindən Ədliyyə Nazirliyinə göndərilirdi.

Hakimlərlə yanaşı, xalq iclasçıları da seçicilər qarşısında məsul idi, hesabat verirdi və qanunla müəyyən edilmiş qaydada onlar tərəfindən geri çağırıla bilərdilər.

Həmin dövrdə xalq iclasçılarının fəaliyyətindəki nöqsanlar, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsində onların iştirakının formal xarakter daşıması ilə bağlı Heydər Əliyevin tapşırığına əsasən bu sahədə ciddi tədbirlər görüldü. Respublika Ali Sovetinin Rəyasət Heyəti və KP MK Bürosunun qərarları ilə bu barədə Ədliyyə Nazirliyinə və Ali Məhkəməyə konkret tapşırıqlar verildi.

Məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsində 1981-ci ildə "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" yeni Qanunun qəbul olunması mühüm rol oynadı.

Daha geniş və əhatəli olan bu qanuna görə Azərbaycan SSR məhkəmə sistemi Ali Məhkəmə, Naxçıvan MSSR Ali Məhkəməsi, Dağlıq Qarabağ Muxtar Vilayət Məhkəməsi, Bakı Şəhər Məhkəməsi, rayon (şəhər) xalq məhkəmələrindən ibarət təşkil olundu.

Yeni qanunvericiliyə uyğun olaraq Ədliyyə Nazirliyi məhkəmələrin təşkili, hakimlər və xalq iclasçıları seçkilərinin keçirilməsi məsələlərinə dair təkliflər hazırlayır, məhkəmələrin işlərini yoxlayır, məhkəmə təcrübəsini öyrənərək ümumiləşdirirdi. Eyni zamanda nazirlik yeni məhkəmələrin yaradılmasına dair təkliflər verir, hakimlərin və xalq iclasçılarının sayını və məhkəmələrin strukturunu müəyyənləşdirirdi.

1977-ci ildə qəbul olunmuş SSRİ-nin yeni Konstitusiyası həmin dövrdə bütün respublikalarda hazırlanan yeni konstitusiyalar üçün baza rolunu oynadı. Respublikanın rəhbəri, Konstitusiya layihəsinin hazırlanması üzrə komissiyanın sədri Heydər Əliyevin Ali Sovetdə məruzəsi dinlənildikdən sonra layihə ümumxalq müzakirəsinə verildi və 21 aprel 1978-ci ildə qəbul edildi.

Vəkillər Kollegiyası da təkmil bir struktur kimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə formalaşdı. 1978-ci ildə qəbul edilmiş Konstitusiyada Kollegiya tərəfindən vətəndaşlara və təşkilatlara hüquqi yardım göstərilməsinə dair müddəa təsbit olundu.

1980-ci il 13 noyabr tarixli Qanunu ilə təsdiq olunmuş "Azərbaycan SSR vəkilliyi haqqında" Əsasnamə vəkillik fəaliyyətinin hüquqi tənzimlənməsinin əsas normativ bazası oldu.



Принято 14 марта 1978 г. прот. № 63 § 1

# ПОСТАНОВЛЕНИЕ

## БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА

О проекте Конституции Азербайджанской Советской Социалистической Республики

1. Одобрить в основном текст проекта Конституции Азербайджанской Советской Социалистической Республики (прилагается)

2. Рекомендовать Комиссии по подготовке проекта Конституции Азербайджанской ССР и Президиуму Верховного Совета Азербайджанской ССР рассмотреть на своих заседаниях текст проекта новой Конституции республики и вынести его на всенародное обсуждение.

3. Поручить рабочей группе при Комиссии по подготовке проекта Конституции Азербайджанской ССР рассмотреть текст проекта Конституции Нахичеванской Автономной Советской Социалистической Республики.

*Azərbaycan SSR Konstitusiyasının layihəsi barədə Azərbaycan KP MK Bürosunun qərarı, 1978-ci il*

Принято 15 апреля 1978 г. прот. № 67 § 2

**ПОСТАНОВЛЕНИЕ**

**БЮРО ЦЕНТРАЛЬНОГО КОМИТЕТА КОМПАРТИИ АЗЕРБАЙДЖАНА**

Об итогах всенародного обсуждения проекта
Конституции Азербайджанской ССР

I. Принять к сведению информацию т.Пугачева Ю.Н. о проделанной Секретариатом Конституционной комиссии работе по внесению уточнений и изменений в проект Конституции Азербайджанской ССР, с учетом итогов всенародного обсуждения. - Записка по данному вопросу прилагается).

2. Одобрить в основном текст проекта Конституции Азербайджанской Советской Социалистической Республики с дополнениями и поправками, внесенными с учетом его всенародного обсуждения.

3. Внести проект новой Конституции с поправками и дополнениями на рассмотрение Комиссии по подготовке проекта Конституции Азербайджанской ССР и пленума ЦК КП Азербайджана.

Г. Алиев

*Azərbaycan SSR Konstitusiyasının ümumxalq müzakirəsinin nəticələri barədə Azərbaycan KP MK Bürosunun qərarı, 1978-ci il*





*Heydər Əliyevin SSRİ Siyasi Bürosunun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi çıxışları*

Həmin Əsasnaməyə uyğun olaraq vəkillik fəaliyyəti ilə məşğul olan şəxslərin könüllü birliyi - Vəkillər Kollegiyası yaradıldı. Azərbaycan SSR Ədliyyə Nazirliyinin razılığı ilə əraziarası və digər yerlərdə vəkillər qurumunun yaradılmasının mümkünlüyü təsbit edildi. Əsasnamədə həmçinin Vəkillər Kollegiyası Rəyasət Heyətinin və üzvlərinin hüquq və vəzifələri, onların seçilmə qaydası, fəaliyyət istiqamətləri, vəkilliyə dair irəli sürülən tələblər və s. müəyyən edildi.

Ötən əsrin 70-80-ci illərinə nəzər salarkən Azərbaycan ədliyyəsinin işlək bir təsisat kimi formalaşaraq inkişaf etməsinin, ədliyyə işinin təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmasının şahidi oluruq.

Heydər Əliyev Azərbaycan xalqının müstəqillik yolunda qarşılaşacağı çətinlikləri hələ o dövrlərdə görür, sovet totalitar rejiminin sərt təzyiqlərinə baxmayaraq, bu günümüz üçün ən qlobal problemləri məharətlə həll edir, ölkəmizin siyasi və iqtisadi müstəqilliyinə şərait yaradır, Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atılırdı.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanmış strateji proqramında Azərbaycan dili ayrıca yer tuturdu. Həmin dövrdə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətin nəticəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması və rus dilinin "vahid dil" kimi geniş təbliğ olunduğu bir şəraitdə Heydər Əliyevin belə bir cəsarətli addımı öz xalqı qarşısında tarixi xidmətlərindən idi.

1965-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə 45 min nəfərin "imzaladığı" petisiya Moskvaya təqdim edilmiş, bunun əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı. 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə göstərdikləri "fəaliyyət" uzun müddət heç bir nəticə vermədi. SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışmış, lakin bu dəfə də heç nəyə nail ola bilməmişlər. H.Əliyevin qətiyyəti sayəsində onun Azərbaycana rəhbərliyi (1969–1982) və SSRİ rəhbərlərindən biri olduğu dövrdə (1982–1987) erməni separatçılarının niyyətlərinin canlanmasına yol verilmədi.

Həmin illərdə Sovetlər Birliyi tərəfindən Azərbaycana qarşı aparılan ayrı-seçkilik siyasətinə və bununla bağlı yaranan çətinliklərə baxmayaraq, Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı.

Ümummilli liderimiz Azərbaycanın müstəqilliyinə inandığı üçün gələcək dövlətimizin hərbi potensiala ehtiyacını nəzərə alıb bu addımı atmışdı. Hadisələrin sonrakı inkişafı bu dahi şəxsiyyətin uzaqgörənliyini bir daha sübut etdi. Müstəqil dövlətimizin gənc ordusunun formalaşmasında həmin məktəbin yetirdiyi hərbi kadrların bilik və təcrübəsi mühüm əhəmiyyət kəsb etdi.

Eyni zamanda Azərbaycanın bugünkü zəngin elmi, iqtisadi, mədəni kadr potensialının təməlində Heydər Əliyevin həmin illərdə apardığı milli quruculuq işləri dayanır. Elmə, təhsilə xüsusi diqqət yetirən Heydər Əliyev 70-ci illərdə hər il minlərlə gənci müxtəlif ixtisaslara yiyələnmək üçün SSRİ-nin nüfuzlu və tanınmış təhsil müəssisələrinə göndərirdi.

Sonralar SSRİ kimi nəhəng dövlətin rəhbərliyinə, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilən Heydər Əliyev zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadı sayəsində bütün türk dünyasının fəxrinə çevrildi. Bu nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev Azərbaycanı öz timsalında bütün dünyaya tanıtdı.



*Ümummilli lider Heydər Əliyev xalqımızın faciəli günündə onun yanında idi*

Ümummilli lider SSRİ rəhbərliyində olarkən Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsinin qeyri-mümkün olduğunu başa düşən məkrli qüvvələr onun vəzifədən uzaqlaşdırılmasına nail oldular, "sapı özümüzdən olan baltalar" isə Azərbaycana qayıdışına maneələr törətməyə başladılar.

Dahi öndərin Sovet rəhbərliyindən uzaqlaşdırılmasından dərhal sonra erməni separatçıları Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək Dağlıq Qarabağ məsələsini qaldırdılar və torpaqlarımıza hərbi hücuma başladılar.

*Azərbaycan xalqı 1990-cı il 20 Yanvar faciəsində Vətən uğrunda canlarını qurban vermiş şəhidləri son mənzilə yola salır*





*Ümummilli lider Heydər Əliyev Naxçıvanda*

1990-cı ilin yanvarın 20-də dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Həmin faciədən dərhal sonra Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi böyük dayaq və təsəlli oldu. Xalq o ağır günlərdə bir daha dahi oğlunun dəstəyini hiss etdi.

Lakin əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi öz yarıtmaz və yararsız fəaliyyəti ilə bu qanlı cinayətin iştirakçına çevrildiyindən, onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü heç bir tədbir görməmiş, əksinə, bu vəhşiliyin ört-basdır edilməsinə çalışmışlar. Yalnız Heydər Əliyev Azərbaycan Respublikasının rəhbərliyinə qayıtdıqdan sonra 20 yanvar faciəsinə siyasi-hüquqi qiymət verildi.

Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyevin ölkəmizə qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq, o, həyatını təhlükə altında qoyaraq Azərbaycana döndü, blokada şəraitində olan və erməni işğalı təhlükəsi ilə üz-üzə qalmış Naxçıvanda böyük ruh yüksəkliyi ilə qarşılanaraq yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi.

Heydər Əliyev 1990-cı ildə ilk dəfə Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul etdi və bu, müstəqilliyə gedən yolun başlanğıcı oldu.

Eyni zamanda Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin çıxarılması, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün müəyyən edilməsi, 20 Yanvar faciəsinə siyasi qiymətin verilməsi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olunması, mühüm imperiya strukturlarının fəaliyyətinin dayandırılması, ilk dəfə olaraq sovet qoşun hissələrinin Muxtar Respublikadan çıxarılması Heydər Əliyevin müstəqillik uğrunda həyata keçirdiyi mühüm xidmətlərindəndir.

Lakin Naxçıvan istisna olmaqla, respublikada SSRİ-nin saxlanılması ilə bağlı referendum keçirildi və nəticələr saxtalaşdırılaraq guya xalqın SSRİ-nin qalması tərəfdarı olduğu göstərildi. Buna baxmayaraq ölkəmizin müstəqilliyi və azadlığı uğrunda daim mübariz olan Azərbaycan xalqı 1991-ci ildə Sovet İttifaqının dağılması ilə yenidən müstəqilliyinə qovuşdu.

